# Cavidin ruhuna ehtiramla

Oktyabrın 19-da Azərbaycan Dillər Universitetinin Multikulturalizm Mərkəzində "Hüseyn Cavid yaradıcılığında bəşəri dəyərlər" mövzusunda tədbir keçirilmişdir. Mərkəzin müdiri Loğman Rəşidzadə tədbirin təşkilatçısı kimi H.Cavid yaradıcılığında bəşəri dəyərlərə yığcam şəkildə toxunandan sonra sözü universitetin Azərbaycan ədəbiyyatı kafedrasının müdiri akademik Muxtar Kazımoğluna vermişdir. M.Kazımoğlu öz çıxışında H.Cavid irsinin dəyrələndirilməsində yeni aspektlərə toxunmuş, böyük şairin yaradıcılığına yeni meyarlarla yanaşmağın zərurətini vurğulamışdır.



Sonra mövzu ətrafında AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu dissertasiya şurasının sədr müavini, f.e.doktoru, professor Tahirə Məmmədin, ADU-nun Azərbaycan ədəbiyyatı kafedrasının müəllimi, f.ü.fəlsəfə doktoru Vəfa Fətullayevanın, "Ədəbiyyat qəzeti"nin baş redaktor müavini, f.ü.fəlsəfə doktoru, Əməkdar jurnalist Adil Cəmilin çıxışları maraqla dinlənilmişdir. Tələbələrdən Rübabə Abdulqəniyevanın, Rəfiqə Aslanovanın Cavid yaradıcılığından əzbər söylədikləri mənzum parçalar müəllim-tələbə kontingentinin cəmləşdiyi tədbirə məxsusi rəng qatmışdır.

Ədəbiyyat qəzeti.- 2022- ci il.- 22 oktyabr.- S. 7.